**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**

**DÖVLƏT İNVESTİSİYALARI ÜZRƏ KADR POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ LAYİHƏSİ (Kredit No 4595AZ)**

**"BEYNƏLXALQ MALİYYƏ QURUMLARININ STANDARTLARI ƏSASINDA MALİYYƏ İDARƏETMƏSİ" MÖVZUSUNDA TƏLİM KURSUNUN KEÇİRİLMƏSİNƏ MARAĞIN BİLDİRİLMƏSİ ÜÇÜN DƏVƏT**

Azərbaycan HökumətiDövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsinin (DİKPGL) xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti alıb. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulub.

**Təlim proqramının məqsədi:**

Seçilmiş təcrübəli Azərbaycan mühasiblərini, maliyyə menecerlərini beynəlxalq maliyyə qurumlarının maliyyə idarəetməsi strategiyaları və əməliyyatları barədə təcrübi biliklərlə və müvafiq peşə bacarıqları ilə təmin etmək.

Təlim kursunun əsas vəzifələri aşağıdakılardır:

- Seçilmiş mühasiblər və maliyyə menecerləri Azərbaycanda fəaliyyət göstərən beynəlxalq maliyyə qurumlarının maliyyə idarəetməsi, habelə vəsait xərcləmə startegiyaları və əməliyyatları ilə tanış olurlar;
- Layihələrin icra qrupları Azərbaycan Respublikasının mühasibat və vergi qaydalarının tələblərini və təlimatlarını başa düşürlər və onlara lazımi şəkildə riayət etmək bacarığına yiyələnirlər;
- İştirakçılara vəsait ayrılması üzrə ərizələrin və tələb olunan köməkçi sənədlərin müxtəlif növlərini tərtib etmək qaydalarından əyani nümunələr göstərilir;
- Təlimdən keçən orta səviyyəli rəhbərlər öz müəssisələrində maliyyə idarəetməsi sistemlərinin daha da təkmilləşdirilməsi üçün biliklər əldə edirlər;
- İştirakçılar maliyyə idarəetməsi, o cümlədən beynəlxalq maliyyə qurumlarını maliyyə idarəetməsi strategiyaları və üsulları, habelə vəsaitlərin xərclənməsi üzrə təlim keçirlər;
- Layihələrin icra qrupları, təşkilatların mühasibləri, maliyyə menecerləri hər bir beynəlxalq maliyyə qurumu tərəfindən maliyyələşdirilən layihələri uğurla idarə etmək bacarığı əldə edirlər.

**İcraçı təşkilat üçün ixtisas tələbləri:**

- Ümumi maliyyə idarəetməsi üzrə təlim kurslarının keçirilməsi sahəsində geniş təcrübəyə və bacarığa malik olan nüfuzlu məsləhətçi şirkəti olması;
- Azərbaycanda fəaliyyət göstərən beynəlxalq maliyyə qurumlarının maliyyə idarəetməsi və vəsait xərclənməsi strategiyaları və üsulları haqqında dərin biliyə malik olması;
- Əsas heyətin müvafiq sahələr və təlim kursları üzrə 5 ildən artıq iş təcrübəsinə malik olması;
- İngilis, Azərbaycan və rus dillərini doğma dilləri qədər yaxşı bilən heyətə malik olanlara üstünlük verilir.

**İcra müddəti və yeri:** fevral-mart 2010-cu il, Bakı, Azərbaycan.

Təhsil Nazirliyi müvafiq şirkətləri qeyd olunan təlim kursunun həyata keçirilməsinə maraqlarını bildirməyə dəvət edir. Xidmətlərə maraq göstərən şirkətlər ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri **2010-cu il yanvarın 25-nə qədər** aşağıdakı ünvana təqdim etməlidirlər:

- müraciət məktubu;
- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

Şirkət Dünya Bankının “Məsləhətçilərin Borcalanlar tərəfindən seçimi və cəlb edilməsi üzrə Qaydaları”na əsaslanan Məsləhətçinin Keyfiyyət Göstəricilərinə dair satınalma metodu ilə seçiləcəkdir.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:

Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Təhsil Sektorunun İnkişafı Layihəsinin Əlaqələndirmə Qrupu,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.

Email: erustamov@ultel.net